# HP ŞIRKƏTİNİN HƏLLƏRİ UNIBANKDA TƏTBİQ EDİLMİŞDİR

**Bakı, 23 yanvar 2008-ci il** - Hewlett Packard (HP) şirkətinin Azərbaycandakı nümayəndəliyi Cənubi Qafqazın aparıcı banklarından olan Unibankda HP həllərinin tətbiqi nəticələrinə həsr edilmiş mətbuat konfransını keçirmişdir. Mətbuat konfransında HP şirkətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Rüfət Hacıəlibəyov, HP-nin MDB ölkələri üzrə korporativ satışlar şöbəsinin rəhbəri Vladimir Yanuşkeviç, Unibank-ın informasiya texnologiyaları Departamentinin meneceri Aleksandr Dzekelev və Unibank-ın informasiya texnologiyaları üzrə şöbə rəisi Qərib Mehdiyev iştirak etmişlər.

Bundan əlavə, HP şirkəti Azərbaycanın bank sektorunda və iqtisadiyyatın digər sahələrində artıq bir sıra iri İT-layihələri həyata keçirməklə geniş təcrübə əldə etmişdir. HP-nin MDB ölkələri üzrə korporativ satışlar şöbəsinin rəhbəri Vladimir Yanuşkeviç qeyd etdi ki, HP şirkətinin Azərbaycanda korporativ müştərilərlə, o cümlədən də bank sektorunda iş üzrə böyük təcrübəsi vardır. Azərbaycanda HP-nin bank sektorunda ilk iri müştərisi Azərbaycanın Milli bankı olmuşdur. O qeyd etdi ki, Unibank HP şirkəti ilə artıq üç ildən artıqdır ki, fəaliyyət göstərir. Unibank-da HP-nin ən aparıcı həllləri tətbiq olunmuşdur.

Mətbuat konfransı zamanı jurnalistlər HP şirkətinin server sistemlərinin Unibankda tətbiqi haqqında məlumatlandırıldılar. HP-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Rüfət Hacıəlibəyov qeyd etdi ki, layihə çərçivəsində ərazi üzrə paylanmış klasterdə iki ədəd Intel Itanium rx6600 və iki ədəd Intel Itanium rx3600 serverləri birləşdirilmişdir. Həmçinin Unibank-da iki EVA4000 disk massivi quraşdırılmışdır. O, qeyd etdi ki, HP Integrity serverləri Itanium 2 prosesorlar bazasında yaradılmışlar. Sözügedən platformların nadir üstünlüyü onların HP-UX 11i, Microsoft Windows Server 2003, Linux və OpenVMS kimi əməliyyat sistemlər ilə uyğun gəlməsidir. Intel Itanium rx6600 serverləri əsas binada, Intel Itanium rx3600 serverləri isə bankın Ehtiyat mərkəzində quraşdırılmışdır. Quraşdırılmış serverlər kommersiya bankının bütün əsas əməliyyatlarının işlnməsini dəstəkləyən core banking xülasəsi

əməliyyatların mühasibat uçotu üçün istifadə olunur.

Aleksandr Dzekelev hesab edir: “HP şirkəti tərəfindən təklif edilən həllər nəinki Unibankın bütün parametrlərinə uyğundur, hətta həmin həllərin Azərbaycan bazarında alternativi mövcud deyil”. Onun sözlərinə görə, HP həlləri bankda artıq tətbiq edilmişdir və Unibankın İT-mütəxəssislərinə onların keyfiyyəti yaxşı tanışdır.

HP Integrity serverlərin quraşdırılması sayəsində bankda son zamanlar ərzində iki dəfə artmış müştəri bazasının effektiv idarə sistemi yaradılmışdır. Avadanlığın təchizatını HP şirkətinin Azərbaycandakı tərəfdaşı olan AZEL şirkəti həyata keçirmişdir. Unibank Azərbaycanda «Ва-Банк ST» avtomatlaşdırılmış bank sistemini tətbiq etmiş ilk maliyyə institutu oldu.